## Bankların real sektora investisiya qoyuluşları artır

Azərbaycanda biznes və investisiya mühitinin yaxşılaşmasına müsbət təsir göstərən amillərdən biri də bank sektorunun dinamik inkişafıdır. Azərbaycan Mərkəzi Bankının (AMB) son illər ərzində həyata keçirdiyi pul siyasəti antiböhran xarakter daşıyaraq makroiqtisadi sabitliyin qorunmasına, maliyyə sabitliyinin gücləndirilməsinə, iqtisadiyyata likvidliyin təmin edilməsinə, sistem əhəmiyyətli bankların fəaliyyətinin sabitləşdirilməsinə yönəlib. Bu addımlar bankların kredit portfelinin artmasına, əmanətlərin həcminin yüksəlməsinə, iqtisadiyyatın kreditləşməsi prosesinin genişlənməsinə təkan verib.

***Regionlar üzrə kreditləşmə genişlənir***

Makroiqtisadi tendensiyaları nəzərə alan AMB-nin uçot dərəcələrini 2008-ci ildəki 15%-dən bir neçə dəfə aşağı salaraq 2011-ci ildə 5,25%, habelə faiz dəhlizinin aşağı həddini 1%, yuxarı həddini 7% səviyyəsində müəyyənləşdirməsi bankların likvidliyini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Nəticədə 2012-ci ilin 9 ayında bankların iqtisadiyyata kredit qoyuluşları 15,2% artaraq 11 milyard 169,7 milyon manata çatıb. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə verilmiş kreditlərin 11,4% artması xüsusən real sektorun inkişafına ciddi təkan verib.

Hesabat dövründə kredit təşkilatlarının regionların kreditləşdirilməsinə yönəltdikləri vəsaitlərin həcmi 8% artıb. Regionlara milli valyutada verilmiş kreditlər xarici valyutada kredit qoyuluşlarını üstələyərək kredit portfelinin 74,3%-ni təşkil edib. Regionlarda əhaliyə verilən kreditlər 1 milyard 372,9 milyon manat və ya bankların kredit portfelinin ümumi həcminin 11,95%-ni təşkil edib.

***Səmərəli anti-inflyasiya tədbirləri...***

2012-ci ilin 9 ayında inflyasiyanın 1,5% təşkil etməsi, manatın məzənnəsinin sabit saxlanması idxalın və daxili istehsalda istifadə olunan xarici mənşəli əmtəələrin bahalaşmasının qarşısını alıb. Valyuta bazarında məzənnənin əhəmiyyətli dərəcədə möhkəmlənməsinin qarşısını almaq, bununla da qeyri-neft sektorunun rəqabət qabiliyyətinə neqativ təsirləri neytrallaşdırmaq üçün AMB hesabat dövründə 978 milyon ABŞ dolları həcmində valyuta sterilizasiyasını həyata keçirib. Nəticədə bu müddətdə manatın ABŞ dollarına qarşı məzənnəsi mülayim templə, cəmi 0,17% möhkəmlənib.

***Depozitlər artır***

Bu ilin yanvar-sentyabr aylarında AMB-nin valyuta ehtiyatları 10% artaraq 11 milyard ABŞ dollarını keçib. Bu, respublikaya təqribən bir il ərzində mal və xidmət idxalını maliyyələşdirməyə imkan verir. Hesabat dövründə bank sektorunun aktivləri 15 milyard 998,9 milyon manat təşkil edib və ilin əvvəli ilə müqayisədə 2 milyard 52,1 milyon manat və ya 14,7% artıb.

Bank sisteminin resurs bazasının əsasən daxili bazardan cəlb edilmiş vəsaitlər hesabına artması da müsbət göstərici kimi xarakterizə oluna bilər. 2012-ci ilin yanvar-sentyabr aylarında bankların ümumi depozitləri 6,7% artaraq 10 milyard 80,6 milyon manata yüksəlib. Hesabat dövründə əhalidən cəlb edilmiş müddətli əmanətlər 286,5 milyon manat, tələb edilənədək əmanətlər isə 50 milyon manat artıb. Əhalinin bank sisteminə inamının yüksəlməsi nəticəsində uzunmüddətli və milli valyutada əmanətlərin artımı müşahidə olunub. Hesabat dövründə uzunmüddətli əmanətlər 10,5% artaraq cəmi əmanətlərin 36%-ni təşkil edib.

Azərbaycan bankları qeyri-rezident fiziki şəxslər üçün cəlbedici olub: yanvar-sentyabr aylarında qeyri-rezident fiziki şəxslər tərəfindən yerləşdirilmiş əmanətlərin həcmi 19,6% artaraq cəmi əmanətlərin 10%-ni təşkil edib.

***Milli ödəniş sistemləri inkişaf edir***

2012-ci ilin 9 ayında milli ödəniş sistemləri sabit və fasiləsiz fəaliyyət göstərib. Ölkədəki iqtisadi aktivliyə adekvat olaraq, milli ödəniş sistemində aparılan əməliyyatların həcmi və sayı artıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə milli ödəniş sistemləri üzrə əməliyyatların sayı 41,9% və ya 5 milyon 614 min ədəd artıb. Nağdsız ödənişlərin 90,5%-i AZİPS sistemi vasitəsilə həyata keçirilib və onun ümumi həcmi 76 milyard 486 milyon manat təşkil edib. Məbləğ baxımından ödənişlərin 9,5%-i və ya 8 milyon manatı XÖHKS sistemi vasitəsilə həyata keçirilib.

Hesabat dövründə kommersiya banklarının 2224 bankomatı və 36702 POS-terminalı fəaliyyət göstərib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkə ərazisində POS-terminalların sayı 2,8 dəfə artıb. Plastik kartların sayı 340 min ədəd artaraq 4,9 milyon ədədə çatıb. İnternet vasitəsilə bank

xidmətlərindən istifadə də genişlənib. Belə ki, dövr ərzində internet-banking vasitəsilə 4,2 milyon manat məbləğində 20,1 min əməliyyat həyata keçirilib.

AMB hesab edir ki, Nazirlər Kabinetinin müvafiq qərarı ilə ticarət və xidmət obyektlərində POS-terminalların 2016-cı ilədək məcburi qaydada quraşdırılması bankların aktivlərinin sürətli artımına və iqtisadiyyatın maliyyə resurslarının möhkəmlənməsinə təkan verəcək.

Samir MUSTAFAYEV